# Gəncədə Mustafa Kamal Atatürkün anım günü keçirilib

**Türk dünyasının dahi şəxsiyyəti Mustafa Kamal Atatürkün vəfatından 84 il ötür. Bununla əlaqədar Türkiyənin Gəncədəki baş konsulluğunda anım mərasimi keçirilib.**

Anım mərasimində Gəncə ŞİH-nin başçısı Niyazi Bayramov, şəhərin hüquq-mühafizə orqanlarının rəhbərləri və ictimaiyyət nümayəndələri iştirak ediblər. Azərbaycanın və Türkiyənin Dövlət himnlərinin səsləndirilməsi ilə başlanan tədbirdə Mustafa Kamal Atatürkün xatirəsi birdəqiqəlik sükutla yad olunub.

Tədbirdə Türkiyənin Gəncədəki baş konsulu Zeki Öztürk Qazi Mustafa Kamal Atatürkün vəfatının 84-cü ildönümü ilə əlaqədar məruzə ilə çıxış edib. Deyib ki, 1919-cu ildə milli mücadiləyə başlayan Mustafa Kamal Atatürk indiki demokratik Türkiyənin





əsasını qoyub, güclü dövlət yaradıb. Məhz Atatürkün səyi və təşəbbüsü ilə 29 oktyabr 1923-cü ildə Türkiyə cümhuriyyət elan olunub. Dahi şəxsiyyətin apardığı bir sıra islahatlar nəticəsində ölkə sürətlə inkişaf edib. Bu gün türk xalqı böyük Atatürkün miras qoyduğu ideyaları həyata keçirir.

Məruzəçi onu da qeyd edib ki, Mustafa Kamal Atatürk Azərbaycan xalqının qəlbində böyük iz buraxıb. Ulu Öndər Heydər Əliyev Atatürk haqqında demişdir: "Mustafa Kamal Atatürk bütün türk dövlətlərinin tarixi şəxsiyyətidir. Bütün türk dünyasının əvəzsiz, ölməz lideridir. Atatürkün hələ o zamanlar "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir" deməyi bu iki dövlətin bir-birinə olan qardaşlıq əlaqələrini daha da möhkəmləndirmişdir".

Sonda Mustafa Kamal Atatürkün xatirəsinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***